**AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazması hüququnda*

# AZƏRBAYCAN RESPUBLİKASININ ŞƏRQ-QƏRB ENERJİ VƏ NƏQLİYYAT DƏHLİZLƏRİNİ İNKİŞAF ETDİRMƏK SİYASƏTİ (1993-2003-CÜ İLLƏR)

İxtisas: **5503.02– Vətən tarixi**

Elm sahəsi: **Tarix**

İddiaçı: **Günel Zəfər qızı Mehdizadə**

Fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyanın

**AVTOREFERATI**

**Bakı – 2022**

Dissertasiya işi Azərbaycan Milli Elmlər Akademiyası A.A.Bakıxanov adına Tarix İnstitutunun "Əliyevşünaslıq" şöbəsində yerinə yetirilmişdir.

| | |
|---|---|
| Elmi rəhbər: | tarix elmləri doktoru, professor<br>**Fəzail Feyruz oğlu İbrahimli** |
| Rəsmi opponentlər: | tarix elmləri doktoru, professor<br>**Oqtay Balaqadeş oğlu Sultanov** |
| | tarix üzrə fəlsəfə doktoru, dosent<br>**Samir Fikrət oğlu Quliyev** |
| | tarix üzrə fəlsəfə doktoru, dosent<br>**Röfət Əli oğlu Quliyev** |

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Azərbaycan Milli Elmlər Akademiyası A.A.Bakıxanov adına Tarix İnstitutu nəzdində fəaliyyət göstərən ED 1.30 Dissertasiya şurası

| | |
|---|---|
| Dissertasiya şurasının sədri:<br>____________________ | tarix elmləri doktoru, professor<br>**Kərim Kərəm oğlu Şükürov** |
| Dissertasiya şurasının elmi katibi:<br>____________________ | tarix üzrə fəlsəfə doktoru, dosent<br>**İlqar Vahid oğlu Niftəliyev** |
| Elmi seminarın sədri:<br>____________________ | tarix elmləri doktoru, professor<br>**Mais İsrail oğlu Əmrahov** |

## I.DİSSERTASİYANIN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı və işlənmə dərəcəsi.** Müasir dünya siyasətinin mühüm tərkib hissələrindən biri olan enerji daşımaları və nəqliyyat dəhlizlərinin inkişaf strategiyası müstəqil Azərbaycan Respublikası üçün də prioritet sahədir. Enerji ehtiyatları, onların emalı və nəqlinin dünya miqyasına çıxarılması sayəsində ölkəyə böyük sərmayələrin cəlb edilməsi iqtisadi inkişafı daha da sürətləndirmiş, uğurlu sosial siyasətə böyük dəstək vermişdir. Problemin aktuallığını şərtləndirən amillərdən biri və birincisi enerji daşımaları və nəqliyyat dəhlizlərini inkişaf etdirmə strategiyasının Azərbaycan Respublikasının daxili və xarici siyasətindəki rolu ilə bağlıdır.

Neft ehtiyatlarına sahib bir ölkə olan Azərbaycanın əlverişli coğrafi-siyasi mövqeyi onu dünyada enerji nəqlinin mərkəzlərindən birinə çevirmişdir. Azərbaycanın iqtisadi və siyasi inkişafı üçün təbii ehtiyatlar qədər, onların nəqli də önəmli amil olmuş və mövcud sahədə rolunu davam etdirməkdədir. Problemin aktuallığını şərtləndirən amillərdən biri də Azərbaycanın iqtisadiyyatında və siyasi inkişafında təbii ehtiyatların nəqlinin oynadığı roldur.

1993-cü ildə Ümummilli lider Heydər Əliyevin Azərbaycanda hakimiyyətə qayıdışı ilə Azərbaycan Respublikasının geosiyasi vəziyyətini, milli inkişaf, milli maraq və təhlükəsizlik məsələlərini və sairəni müəyyən edən yeni dövlət strategiyası hazırlanmış oldu. Bu strategiya Azərbaycanın milli təhlükəsizliyi, enerji və nəqliyyat-kommunikasiya siyasətinin nəzəri və praktiki əsaslarını təşkil edərək, ölkənin sosial-iqtisadi, siyasi və mənəvi inkişafının da milli dəyərlər və prinsiplər əsasında qurulması vəzifələrini qarşıya qoymuşdur. Müasir inkişafın Azərbaycan modelinin öyrənilməsi baxımından da araşdırılan problemin əhəmiyyəti böyükdür.

1994-cü ildə "Əsrin müqaviləsi"nin imzalanması Azərbaycan dövlətinin əldə etdiyi böyük uğur olmaqla yanaşı, əvvəlcə Azərbaycan Respublikasının neft və qaz sənayesinin inkişafına təkan verdi və növbəti addım kimi isə gələcəkdə Azərbaycanın tranzit enerji dəhlizi kimi rolunu artırdı. "Əsrin müqaviləsi"nin imzalanması ilə zəngin neft və təbii qaz ehtiyatlarına malik ölkəyə böyük

sərmayələrin cəlb edilməsinə nail olunması həm də bu ehtiyatların Avropaya nəqlində, həmçinin Şərq-Qərb əlaqələrinin daha intensiv inkişaf etdirilməsində Azərbaycanın vasitəçi rolunu təmin etmiş oldu. Azərbaycan Respublikası dünya siyasətində etibarlı bir tərəfdaş kimi qəbul edilməyə başlandı. Bu yolda "Böyük İpək yolu"nun Şərq-Qərb istiqaməti üzrə Azərbaycandan keçməsinin əhəmiyyəti böyükdür. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin də qeyd etdiyi kimi, *"Böyük İpək Yolu"nun bərpası və TRACECA nəqliyyat dəhlizinin fəaliyyəti regional inteqrasiya proseslərinə təkan verərək ölkəmizin sosial-iqtisadi inkişafina bundan sonra da xidmət edəcəkdir"*.[1]

Şərq-Qərb nəqliyyat və enerji dəhlizləri çərçivəsində iri layihələrin həyata keçirilməsi bir tərəfdən, Azərbaycan Respublikası üçün Qərb məkanına inteqrasiyanın siyasi-iqtisadi və elmi-texnoloji əhəmiyyətini artırdı, digər tərəfdən isə, MDB məkanında, habelə türk dövlətləri arasında qarşılıqlı əlaqələrin inkişafı üçün yeni perspektivlər açdı.

Şərq-Qərb enerji və nəqliyyat dəhlizlərində aparıcı yer alan Azərbaycan Respublikası müasir tələblərə uyğun iqtisadiyyat qurmaq, etibarlı təmələ sahib sosial siyasət həyata keçirtmək istiqaməti götürdü. Bu prosesin təməl mərhələsi 1993-2003-cü illəri əhatə etmişdir. Bu məsələnin elmi-konseptual cəhətdən araşdırılması, Azərbaycanın Şərq-Qərb enerji və nəqliyyat dəhlizlərində rolunun müəyyən edilməsi böyük elmi-nəzəri və təcrübi əhəmiyyət kəsb edir ki, bu da dissertasiya işinin elmi aktuallığını şərtləndirən əsas amillərdən biridir.

Azərbaycanın Şərq-Qərb enerji və nəqliyyat dəhlizlərini inkişaf etdirmək siyasəti indiyədək tarixşünaslıqda ayrıca tədqiqat obyekti olmamışdır. Lakin mövzu ilə bağlı enerji ehtiyatlarının nəqli məsələləri və nəqliyyat dəhlizlərini inkişaf etdirilmək siyasəti böyük elmi aktuallıq kəsb etdiyindən bu məsələlərlə bağlı olan bir sıra

---

[1]İlham Əliyevin "Tarixi İpək Yolu"nun bərpası üzrə Beynəlxalq Konfransın 10 illiyinə həsr olunmuş yubiley konfransında çıxışı // "Azərbaycan" qəzeti. - 2008, 5 dekabr. - s.3.

məqamlar tarixi, siyasi, iqtisadi ədəbiyyatlarda öz əksini tapmışdır.

Azərbaycan neftinin Azərbaycanın müasir beynəlxalq münasibətlərinin inkişafında rolu, dünya geosiyasətində Azərbaycanın neft strategiyasının yeri və perspektivləri Prezident İlham Əliyevin "Azərbaycanın Xəzər nefti" adlı fundamental monoqrafiyasında geniş şəkildə araşdırılmışdır. Əsərdə neft siyasətinin bütün önəmli tərəfləri, həmçinin Xəzərin hüquqi statusu, enerji qaynaqlarının nəqli problemləri öz əksini tapmışdır.[1] Heydər Əliyevin "Azərbaycan nefti dünya siyasətində" əsərinin 4-cü və 5-ci kitablarında müstəqillik qazanıldıqdan sonra Azərbaycan Respublikasının neft strategiyası, neft müqavilələrinin bağlanması, onların həyata keçirilməsi sahəsində görülən tədbirlər, neftin daşınma marşrutlarının seçilməsi, Xəzərin hüquqi statusu məsələləri və s. öz əksini tapmışdır.[2]

H.M.Paşayevin "Bir səfirin manifesti" əsəri "Əsrin müqaviləsi"nin imzalanmasına qədər olan proseslər, Hyuston danışıqları, Azərbaycan hökumətinin bütün çətinliklərə baxmayaraq müqavilənin imzalanmasına nail olması, ABŞ siyasətinin o dövr üçün tutduğu mövqenin aydınlaşdırılması və s. öyrənmək baxımından çox əhəmiyyətlidir.[3]

N.A.Əliyevin "Azərbaycanın iqtisadiyyatında neft və neft amili" adlı monoqrafiyası Azərbaycan neft sənayesi, neftin çıxarılması, onun nəqlində diversifikasiyaya nail olunması, neftin iqtisadiyyatımızın inkişafına təsiri məsələlərini öyrənmək baxımından çox əhəmiyyətlidir.[4]

---

[1]Алиев, И.Г. Каспийская нефть Азербайджана /И.Г.Алиев. - Москва: Известия, - 2003.- 712 с.

[2]Əliyev, İ.H. Azərbaycan nefti dünya siyasətində. IV kitab / İ.H.Əliyev, A.Muradverdiyev - Bakı: Azərbaycan nəşriyyatı, - 1997. - 480 s.; V kitab / İ. H. Əliyev, A. Muradverdiyev - Bakı: Azərbaycan nəşriyyatı, - 1997. - 330 s.

[3]Paşayev, H.M. Bir səfirin manifesti / H.M.Paşayev. – Bakı:Şərq-Qərb, - 2007. - 248 s.

[4]Алиев, Н.А. Нефть и нефтяной фактор в экономике Азербайджана XXI веке /Н.Алиев. - Баку: Letterpress, - 2010. - 244 с.

A.Aslanlı və İ.Həsənovun həmmüəllifi olduqları "Heydər Əliyev dövründə Azərbaycanın xarici siyasəti" adlı monoqrafiyada müstəqillik qazanıldıqdan 2003-cü llədək keçən müddətdə Azərbaycanın xarici siyasəti məsələləri geniş şəkildə tədqiq edilir.[1] Ümummilli lider Heydər Əliyevin xarici siyasəti və müəllifi olduğu neft strategiyası İ.Hüseynovanın monoqrafiyalarında təhlil edilmiş və onun Azərbaycanın siyasi tarixindəki rolu araşdırılmışdır.[2] S.Quliyevin "Azərbaycan Respublikasının neft strategiyası və Qafqazda təhlükəsizlik problemləri" adlı əsərində Azərbaycan Respublikasının neft strategiyası, qlobal və regional dövlətlərin Qafqaz siyasətində neft amilinin rolu məsələləri işıqlandırılmışdır.[3]

Azərbaycanın xarici siyasətində enerji məsələsi və ölkənin neft siyasəti A.Aslanlı, Ə.Mehdiyev, S.Bağırov, X.Yusifzadə, C.Bəhramov, B.Nəcəfovvə s. kimi müəlliflərin də əsərlərində müxtəlif aspektlərdə araşdırılmışdır.[4] T.Ziyadovun "Azərbaycan

---

[1]Aslanlı, A. Haydar Aliyev Dönemi Azerbaycan Dış Politikası /A.Aslanlı, İ.Hesenov - Ankara: Platin yayıları, - 2005. - 282 s.

[2]Hüseynova, İ.M. Heydər Əliyev və Qafqazda sülh prosesi / İ.Hüseynova. - Bakı: Çaşıoğlu, - 2008. - 670 s.; Yenə onun. Müstəqil Azərbaycan dövlətinin qurucusu / İ.Hüseynova. - Bakı: Təhsil, - 2004. - 472 s.

[3]Quliyev, S. Azərbaycan Respublikasının neft strategiyası və Qafqazda təhlükəsizlik problemləri / S.Quliyev. - Bakı: BMU nəşriyyatı, - 2018. - 236 s.

[4]Aslanlı, A. Azərbaycanın xarici siyasətində enerji amili / A. Aslanlı, E. Vəliyev // "Strateji Təhlil" Azərbaycan Respublikasının daxili və xarici siyasətinə, beynəlxalq münasibətlərə dair analitik jurnal, - Bakı: 2017. Sayı 1-2 (19-20), - s.121-134; Mehdiyev, Ə.B. Əsrin müqaviləsi. Azərbaycan neft strategiyasının təməl daşı / Ə.B.Mehdiyev. - Bakı: Turxan NPB, - 2014. - 248 s.; həmçinin bax: Mehdiyev, Ə.B. Geosiyasi mübarizənin qalibi: "Əsrin Müqaviləsi" // -Bakı: Geostrategiya, - 2011. № 2 (02), - s. 34-43;Bagirov S. Azerbaijan`s strategic choice in the Caspian region// The Security of the Caspian Sea Region, p.178-194: [Electronic resource]URL:https://www.sipri.org/sites/default/files/files/books/SIPRI01Chufrin/SIPRI01Chufrin10.pdf;Yusifzadə, X. Azərbaycanın neft-qaz sənayesi "Əsrin müqaviləsi"nin imzalanmasından ötən 25 ildə əsrə bərabər inkişaf yolu keçib // Xalq qəzeti.- 2009, 19 sentyabr, - s.3.; Bəhramov, C.Ə. Azərbaycan Respublikasinin neft strategiyasi və Rusiya Federasiyasının Cənubi Qafqaz siyasəti (1994-2004) // Bakı: Qərb Universiteti Elmi Xəbərləri, Qərb Universiteti Nəşriyyat-Poliqrafiya Mərkəzi, - 2013. № 2. - s.3-14; Nəcəfov, Z. Türkiyənin müasir Cənubi Qafqaz strategiyasının əsas prioritetləri // - Bakı: Strateji təhlil,

Mərkəzi Avrasiyada regional qovşaq kimi: Avro-Asiya ticarət və nəqliyyatın strateji qiymətləndirilməsi" əsəri TRACECA nəqliyyat dəhlizinin fəaliyyətini, dəhlizin Avropa ilə Asiya arasında oynadığı rolun mahiyyətini öyrənmək baxımından çox əhəmiyyətlidir.[1] Avropa-Qafqaz-Asiya nəqliyyat dəhlizi ilə bağlı bir sıra məsələlərin təhlili zamanı Z.Məmmədov, M.Məmmədovun və başqalarının araşdırmalarına da istinad edilmişdir[2]. Dissertasiyanın yazılması gedişində müstəqil Azərbaycan Respublikasının tarixinə həsr edilmiş ümumiləşdirici əsərlərdən, o cümlədən, "Azərbaycan Respublikasının tarixi (1991-2016-cı illər)" adlı 2 cildlik əsərdən geniş istifadə edilmişdir.[3]

Araşdırılan mövzu Türkiyə tarixşünaslığında ayrıca bir problem olaraq sistemli şəkildə araşdırılmasa da, B.Şimşirin,[4] O.N.Arasın, [5]R.Qaradağın,[6] T.Babalının[7] əsərlərində Azərbaycanın Türkiyə ilə əməkdaşlığı, Xəzər dənizinin enerji təhlükəsizliyi, Bakı-Tbilisi-Ceyhan xəttinin bölgə və dünya enerji siyasətində yeri kimi məsələlər ümumi şəkildə tədqiq edilmişdir. M.Çelikpalanın, E.Jamillinin, A.Üzümcünün və Y.Demirağın məqalələri də mövzu ilə

---

Azərbaycan Respublikasının daxili və xarici siyasətinə, beynəlxalq münasibətlərə dair analitik jurnal, - 2014. say 4 (11), - s.69-83.

[1]Ziyadov, T. Azerbaijan as a Regional Hub in Central Eurasia: Strategic Assessment of Euro-Asian Trade and Transportation /T.Ziyadov. - İstanbul: Caspian Strategy Institute, - 2012. - 287 p.

[2]Məmmədov, Z. XXI əsr: İqtisadi inkişafın nəqliyyat faktoru / Z.Məmmədov. - Bakı: Azərnəşr, - 2002. - 384 s. ;Məmmədov, M. Nəqliyyatın dinamik inkişaf strategiyası / M.Məmmədov. - Bakı: Çaşıoğlu, - 2015, - 228 s.

[3]Azərbaycan Respublikasının tarixi (1991-2016-cı illər) [iki cilddə] / Elmi red. Y.M.Mahmudov. - Bakı: Turxan NPB, c.2. -2016. - 716 s.

[4]Şimşir, N.B. Azerbaycan: Azerbaycan'ın Yeniden Doğuş Sürecinde Türkiye-Azerbaycan İlişkileri / N.B.Şimşir. - Ankara: Bilgi Yayınevi, - 2011. - 768 s.

[5]Aras,O.N. Azerbaycan'ın Hazar Ekonomisi ve Stratejisi /O.Aras. - İstanbul: Derin yayınları, - 2008. - 298 s.

[6]Karadağ, R. Petrol fırtınası /R.Qaradağ. - İstanbul:Ötükən yayınları, - 1975. – 409s.

[7]Babalı, T. Caspian energy diplomacy: since the end of Cold War / T.Babalı. - Ankara: Akyazı, - 2006.- 264 p.

bağlı materiallara malikdir.[1]

Qərb araşdırmaçılarından S.Kornel, O.Bayulgen, C.Nakhle, D.Morqan, D.Ottovey, H.Karrar, T.Svitaçovski kimi müəlliflərin tədqiqatlarında əsasən Qərb ölkələrinin enerji təhlükəsizliyi məsələsinin həlli istiqamətində Azərbaycana olan maraqları, Qafqaz və Xəzər bölgəsinin geosiyasi və iqtisadi durumu, Azərbaycanın Qərbin enerji-nəqliyyat layihələrindəki rolu və perspektivləri, Xəzərin statusu məsələsi, o cümlədən Bakı-Tbilisi-Ceyhan xəttinin əhəmiyyəti kimi məsələlərə toxunulmuşdur.[2] ABŞ-ın görkəmli politoloqu Z.Bjezinskinin "Böyük şaxmat taxtası" əsərində ABŞ-ın qlobal siyasəti, qlobal enerji təhlükəsizliyi çərçivəsində ABŞ-ın həyata keçirtdiyi siyasətdə Azərbaycanın yeri məsələlərinə də yer verilmişdir. Qafqaz regionunda ABŞ-ın maraqlarını öyrənmək

---

[1]Çelikpala, M. Azerbaycan-Gürcistan-Türkiye Bölgesel İşbirliğinin Başarı Örneği / M.Çelikpala, C.Veliyev // CİES (Center for İnternational and European Studies), Police Brief, - İstanbul: Kadir Has Universitetsi press,- 2015.say 3, - s.2-18.; Jamilli, E. ABD'nin Güney Kafkasya politikası (1991-2001) /E.Jamilli. - Ankara: Ankara Üniversitesi, Sosyal Bilimler Enstitüsü, - 2004. - 334 s.; Üzümcü, A.Yeni İpek Yolu: TRACECA ve Bakü-Tiflis-Kars Demiryolu Projesi /A.Üzümcü, S.Akdeniz // Avrasya etüdleri, - Ankara: 2014. say 45, - s.171-199; Demirağ, Y. Türkiye - Gürcistan İlişkileri. Türkiye'nin Avrasya Macerası. 1989-2006 (Avrasya Üçlemesi II), der. Mustafa, A. - Ankara: Nobel Yayın Dağıtım, - 2007. -s. 269-296.

[2]Bayulgen, O. Foreign Investment and Political Regimes: The Oil Sector in Azerbaijan, Russia and Norway /O.Bayulgen. - New-York: Cambridge University Press, - 2010. - 290 p.; Nakhle, C. Caspian oil and gas in a world of plenty: [Electronic resource] / URL:https://www.crystolenergy.com/caspian-oil-gas-world-plenty; Cornell, S.E. Azerbaijan since independence /S.E. Cornell. - New York: Armonk, - 2011. - 485 p.;Karrar, H.H. The new Silk Road Diplomacy. China′s Central Asia foreign policy since the Cold War / H.H.Karrar. - Vancouver-Toronto: UBC Press, - 2010. - 272 p.; Morgan, D. Ottoway, D. Azerbaijan′s Riches Alter the Chessboard // Washington Post.-1998, - 4 October. - p.2-3.;Swietochowski, T. Azerbaijan: Perspectives from the crossroads. Central Asian Survey, 1999, 18(4), p.419-434:[Electronic resource] / URL:http://dx.doi.org/10.1080/713656170; Tareq, Y.I. Turkey's Foreign Policy in the 21st Century: A Changing Role in World Politics /Y.İ.Tareq, M.Aydın - Burlington: Ashgate, - 2003, - 224 p.; Swietochowski, T. Azerbaijan: Perspectives from the crossroads. Central Asian Survey, 1999, 18(4), p.419-434:[Electronic resource] / URL:http://dx.doi.org/10.1080/713656170

baxımından bu əsər əhəmiyyət kəsb edir.[1]

Azərbaycan-Rusiya Federasiyası əlaqələri, Azərbaycanın Qərb ölkələri ilə enerji-nəqliyyat layihələri vasitəsilə yaxınlaşması, Xəzər dənizi bölgəsinin müasir geostrateji önəmi və Rusiyanın bölgədəki maraqları Rusiya tarixçiləri və politoloqlarının əsərlərində ətraflı araşdırılmışdır. S.S.Jilsovun, S.Çernyavskinin əsərlərini xüsusi olaraq qeyd etməliyik.[2] Bu əsərlərdə SSRİ-nin dağılmasından sonra Rusiyanın bölgədəki mövqeyinin zəifləmə səbəbləri, ABŞ və Avropa İttifaqının sürətli şəkildə bölgəyə nüfuz etməsinin şərtləri və Rusiya üçün bu dəyişikliklərin doğurduğu nəticələr birtərəfli şəkildə araşdırılmışdır. "Əsrin müqaviləsi", BTC, TRACECA kimi layihələrə şübhə ilə yanaşan A.Konoplyannik, Q.Voytolovski, N.Kosolapov, V.Mişin, V.D.Pisarevin məqalələrində də bu təmayülə rast gəlinməkdədir.[3]

---

[1]Бжезинский, 3. Великая шахматная доска /З.Бжезинский. - Москва: Международные отношение, - 1999. - 256 с.

[2]Жильцов, С.С.Трубопроводы в Центральной Азии и Каспийском регионе: новый этап борьбы // - Москва: Центральная Азия и Кавказ, -2014. № 3, - с.139-153; Yenə onun. Геополитика Каспийского региона. / С.С. Жильцов, И.С.Зонн, А.М.Ушков - Москва: Международные отношения, - 2000. - 280 с.; Yenə onun. США в погоне за Каспием /С.С.Жильцов,И.С.Зонн. -Москва: Международные отношения, - 2009. - 200 с.; Чернявский, С. И. Кавказская стратегия Вашингтона // - Москва: Международная жизнь, - 1999. № 1, - с.22-28; 10 лет истории Азербайджана. 2003-2013 годы / С.И.Чернявский. - Москва: Флинта, 2013. - 416 с.; Yenə onun. Политика США по укреплению своего влияния в Азербайджане. Независимый Азербайджан: новые ориентиры:[в 2-х томах] / С.И.Чернявский. - Москва: Рос. Ин-т стратег. исследований, - т.2. -2000.- 420 с.

[3]Конопляник, А. А. Каспийская нефть на Евразийском перекрестке// - Москва: ИнфоТЭК: статистика, документы, факты, - 1998. № 12, - с. 15-28; Войтоловский, Г. Особенности геополитической ситуации Каспийском регионе / Г. Войтоловский, Н. Косолапов// Европа и Россия: проблема южного направления. Средиземноморье - Черноморье - Каспий, - Москва: - 1999.- с.307-323; Зенькович, Н.А. Илхам Алиев. Взгляд из Москвы/ Н.А.Зенькович. -Москва: Яуза, Эксмо, - 2008. - 512 с.; Мишин, В. Европейские желания и Каспийские возможности // - МоскваНефть России, - 2009. № 1, - с.84-86; Писарев, В.Д. Политика США в Каспийском

Çin müəllifi B.Lianlei "Azərbaycan İpək Yolu İqtisadi Kəmərində: Çin perspektivi" adlı əsərində Çinin yeritmiş olduğu "İpək Yolu İqtisadi Kəməri" siyasətində nəqliyyat-tranzit məsələləri və əməkdaşlıq imkanları baxımından Azərbaycanın oynadığı rol araşdırılmışdır[1].

Tarixşünaslıq icmalından da göründüyü kimi, 1993-2003-cü illərdə Azərbaycan Respublikasının Şərq-Qərb enerji və nəqliyyat dəhlizləri siyasəti istər Vətən, istərsə də xarici tarixşünaslıqda kompleks şəkildə araşdırılmamışdır. Lakin adları çəkilən tədqiqatçıların əsərlərindəki faktoloji materiallar, problemə yanaşma üsulları dissertasiyanın yazılması üçün əhəmiyyətli olmuşdur.

Dissertasiya işi geniş mənbə bazasına malik olub, aşağıdakı materialların müqayisəli təhlili əsasında yazılmışdır. İstifadə etdiyimiz mənbələri bir neçə qrupa ayıra bilərik: 1) Rəsmi sənədlər (protokollar, müqavilələr, bəyanatlar, məktublar, fərmanlar); Bu qrupun altqrupu olaraq, xronikalar, müsahibələr, məruzələr, müraciətlər, çıxışlar, nitqlər; 2) arxiv sənədləri; 3) statistik toplular və hesabatlar.

Birinci qrupda birləşdirdiyimiz rəsmi sənədlər içərisində materialın genişliyi və əhəmiyyəti baxımından ilk yerdə Ümummilli lider Heydər Əliyevin imzaladığı fərmanlar, sərəncamlar və müqavilələr, verdiyi bəyanatlar durur. Qeyd edək ki, bu rəsmi sənədlər öz əksini "Müstəqilliyimiz əbədidir: çıxışlar, nitqlər, bəyanatlar, məktublar, müsahibələr, məruzələr, müraciətlər, fərmanlar" adlı çoxcildlik sənədlər toplusunda tapmışdır.[2] Bu toplularda toplanmış sənədlər Ümummilli lider Heydər Əliyevin dövlət başçısı olaraq fəaliyyətini əks etdirməklə, araşdırdığımız problem üzrə müvafiq rəsmi sənədləri də bir araya gətirmişdir.

---

регионе// - Москва:Европа и Россия: проблемы направления. Средиземноморье-Черноморье-Каспий, -2000. №2, - с.72-94.

[1] Lianlei, B. "Azerbaijan in the Silk Road Economic Belt: A Chinese Perspective".China Institute of International Studies // Caucasus İnternational. Vol. 6.No. 1.Summer 2016. p. 27-40

[2]Əliyev, H.Ə. Müstəqilliyimiz əbədidir: [46 cilddə] / H.Əliyev. - Bakı: Azərnəşr, - c.1-26. -1997-2009.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin “İnkişaf məqsədimizdir: çıxışlar, nitqlər, bəyanatlar, məktublar, müsahibələr, məruzələr, müraciətlər, fərmanlar” adlı çoxcildlik sənədlər toplusunun müvafiq cildlərindən geniş istifadə olunmuşdur. Bu materiallar tədqiq edilən Şərq-Qərb enerji və nəqliyyat dəhlizləri məsələlərinin öyrənilməsi, Azərbaycan Respublikasının bu sahədə həyata keçirdiyi dövlət siyasətinin araşdırılması, eyni zamanda qlobal siyasətin təsir dairəsinin obyektiv öyrənilməsi baxımından əsas mənbələrdən biridir.[1]

Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi nəzdindəki geniş elektron kitabxanadan, Heydər Əliyev irsinin araşdırılması çərçivəsində təşkil olunan tarixi faktlarla zəngin elektron bazadan, ARDNŞ arxivindəki illik hesabatlarından, eyni zamanda qurumun rəsmi internet səhifəsindəki materiallardan, “BP”-nin elektron sənədləri və hesabatlarından, Azərbaycan Respublikası Statistika Komitəsinin hesabatlarından, TRACECA Hökumətlərarası Komitəsinin hesabatlarından, Azərbaycan Respublikasının Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin rəsmi internet səhifələrindən də istifadə olunmuşdur.

İkinci qrupa Tarixi İpək Yolunun bərpası üzrə 8-9 sentyabr 1998-ci ildə Bakıda keçirilmiş beynəlxalq konfransın materialları, Avropa-Qafqaz-Asiya nəqliyyat dəhlizinin yaradılması sahəsində imzalanmış Əsas Çoxtərəfli Saziş və əsasən arxiv sənədləri daxildir. TRACECA Hökumətlərarası Komitəsinin Azərbaycan üzrə Milli Katibliyinin cari arxivində 1993-2005-ci illəri əhatə edən sənədlər dissertasiya mövzusunun araşdırılmasında faktoloji material baxımından səmərə vermişdir.

Üçüncü qrupa aid etdiyimiz sənədlər isə nəşr edilmiş statistik toplular və hesabatlardır. Onların içərisində “Azərbaycanın qanunvericilik toplusu. 1998-2007-ci illər”, “Azərbaycanın nəqliyyat və rabitəsi. Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi”, “Azərbaycanın statistik göstəriciləri. Azərbaycan Respublikası

---

[1]Əliyev, İ.H. İnkişaf məqsədimizdir: [46 cilddə] / İ.H.Əliyev. - Bakı: Azərnəşr, - c.1-108. – 2008-2021.

Statistika Komitəsi", "Müstəqil Azərbaycan 10 il. Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi" adı altında çap olunmuş sənədlər xüsusi yer tutur.

Tədqiqatın mövzusu Azərbaycan, türk, ingilis və rus dillərindəki mənbələr əsasında öyrənilmişdir. Problemin dərindən araşdırılması baxımından təqdim olunan mənbə və ədəbiyyatlar müqayisəli təhlil əsasında dissertasiya işində istifadə olunmuşdur.

Dissertasiyada şərti olaraq üç qrupda birləşdirdiyimiz sənədlərlə yanaşı, qəzet və jurnallarda, toplularda və konfrans materiallarında mövzu ilə bağlı öz əksini tapmış bir sıra materiallardan da istifadə edilmişdir.

**Tədqiqatın obyekti və predmeti.** 1993-2003-cü illərdə Azərbaycan Respublikasının enerji və nəqliyyat dəhlizlərini inkişaf etdirmək siyasəti tədqiqat işinin obyektini təşkil edir. Tədqiqatın predmetinə Azərbaycan Respublikasının enerji ixracının şaxələndirilməsi siyasəti və Xəzər dənizi enerji ehtiyatlarının dünya bazarlarına nəqli məsələləri, nəqliyyat-kommunikasiya siyasətinin uğurlu reallaşdırılmasından əldə edilən nəticələr daxildir.

**Tədqiqatın məqsəd və vəzifələri.** Dissertasiya işinin başlıca məqsədi Azərbaycan Respublikasının Şərq-Qərb enerji və nəqliyyat dəhlizlərini inkişaf etdirmək siyasətini kompleks şəkildə araşdırmaq, bu siyasətin tarixi şərtlərini, Azərbaycan üçün əhəmiyyətini və ümumilikdə Şərq-Qərb enerji və nəqliyyat dəhlizlərinin inkişafının Azərbaycanın nəqliyyat-kommunikasiya sistemindəki yerini müəyyən etməkdir. Bu məqsəddən çıxış edərək dissertasiyada aşağıdakı vəzifələrin yerinə yetirilməsinə diqqət yetirilmişdir:

- 1990-cı illərin əvvəllərində Cənubi Qafqaz regionunda geosiyasi vəziyyəti və böyük güc mərkəzlərinin regionda Azərbaycanla bağlı maraqlarını təhlil etmək;
- 1993-2003-cü illəri əhatə edən xronoloji çərçivədə Azərbaycan Respublikasının enerji siyasətinin və Heydər Əliyevin neft strategiyasının elmi-nəzəri tərəflərini öyrənmək;
- Xəzərin enerji ehtiyatlarının nəql olunması sisteminin yenidən qurulması və inkişafı prosesini izləmək;

- Xəzərin enerji ehtiyatlarının nəqli ilə bağlı çoxşaxəli boru kəmərləri marşrutlarının müəyyən edilməsi prosesini göstərmək;

- Xəzər dənizi ehtiyatlarının dünya bazarlarına nəqlində qərb yolunun seçilməsinin vacibliyini və əhəmiyyətini təhlil etmək;

- Bakı-Tbilisi-Ceyhan əsas neft kəməri layihəsinin gerçəkləşdirilməsinin, "İpək Yolu"nun bərpası ideyası və TRACECA nəqliyyat dəhlizinin yaradılmasının şərtlərini və nəticələrini izləmək və tədqiq etmək;

- Azərbaycan Respublikasının "Böyük İpək Yolu" üzərində beynəlxalq nəqliyyat qovşağına çevrilməsinin elmi-nəzəri əsaslarını tədqiq etmək;

- TRACECA layihəsinin Azərbaycan Respublikasının regional və beynəlxalq əlaqələrinin genişləndirilməsində və nəqliyyat-kommunikasiya sisteminin inkişafında rolunu elmi əsaslarla təhlil etmək;

- Şərq-Qərb enerji və nəqliyyat dəhlizinin inkişafı üçün Azərbaycan Respublikasının əməkdaşlıq perspektivlərinə, potensialına və roluna elmi-nəzəri qiymət vermək;

**Tədqiqat metodları.** Dissertasiyada qarşıya qoyulmuş məqsəd və vəzifələrin yerinə yetirilməsi gedişində bir sıra elmi-nəzəri metodlardan istifadə edilmişdir. Konseptuallıq, obyektivlik, tarixilik prinsipləri, arxiv və tədqiqat materiallarına tənqidi yanaşma, bu materialların müqayisəli təhlili metodları istifadə edilən metodlar sırasındadır. Analiz (təhlil) və ümumiləşdirmə metodlarının tətbiqi Azərbaycanın Şərq-Qərb enerji və nəqliyyat dəhlizlərindəki rolunu obyektiv şəkildə qiymətləndirməyə imkan vermişdir.

Araşdırma gedişində Azərbaycanın və müasir beynəlxalq münasibətlərin tarixinin araşdırıldığı əsərlərin də nəzəri-metodoloji faydası çox olmuşdur.

**Müdafiəyə çıxarılan əsas müddəalar** aşağıdakılardan ibarətdir:

1. Enerji və nəqliyyat dünya iqtisadiyyatının aparıcı sahələrindən biri kimi müasir inteqrasiya proseslərində, həmçinin dövlətlərin xarici siyasətində böyük əhəmiyyətə malikdir. Müasir dövrdə enerji ehtiyatlarına sahib olmaqla yanaşı, bu ehtiyatların nəqli də böyük

strateji əhəmiyyətə malikdir və güclü, uzun müddətə hədəflənmiş dövlət siyasətini tələb edir.

2. 1993-2003-cü illərdə Ulu Öndər Heydər Əliyevin uğurlu neft strategiyası və enerji siyasəti Azərbaycanın daxili və xarici siyasətinə və dövlət mənafeyinə uyğun olmaqla yanaşı, həm də dünyanın iri enerji və nəqliyyat layihələrinin reallaşdırılmasına imkan vermişdir.

3. Cənubi Qafqazın strateji baxımdan ən önəmli ölkəsi olan Azərbaycan Respublikasının son iki onillikdə Avropa İttifaqı, eləcə də ABŞ, Türkiyə, Rusiya və Çin kimi dövlətlərlə əlaqələri geniş miqyas almışdır. Azərbaycan Respublikası müasir dünyanın enerji və nəqliyyat sistemində önəmli yerlərdən birini tutur və həyata keçirdiyi enerji siyasəti onu Şərq-Qərb enerji və nəqliyyat dəhlizlərinin fəal iştirakçısına çevirmişdir.

4. Azərbaycan Respublikasının enerji ehtiyatları, enerji-nəqliyyat xətləri və iqtisadi əlaqələri təkcə ölkənin deyil, bütövlükdə regionun da beynəlxalq iqtisadi inteqrasiya proseslərinə fəal şəkildə qatılmasını sürətləndirmişdir, Trans-Avropa və Trans-Asiya dəmir yolu şəbəkələrinin bir sistemdə birləşməsinə imkan vermişdir.

5. Şərq-Qərb nəqliyyat və enerji dəhlizləri çərçivəsində irimiqyaslı layihələrin həyata keçirilməsi böyük bir coğrafiyada Azərbaycan Respublikasının siyasi-iqtisadi və elmi-texnoloji əhəmiyyətini artırmışdır, eyni zamanda, MDB və türk dövlətləri arasında əlaqələrin inkişafı üçün yeni perspektivlər açmışdır.

6. Xəzərin Azərbaycan sektorunda yerləşən neftini dünya bazarlarına daşıyan Əsas İxrac Boru Kəmərinin reallaşdırılması ilə neftin nəqlində alternativliyə nail olan Azərbaycan Respublikası təkcə iqtisadi cəhətdən deyil, strateji cəhətdən də böyük bir üstünlük əldə etmişdir. ƏİBK-nin ən vacib aspektindən biri onun Qara dənizi yan keçməklə birbaşa Aralıq dənizinə çıxması və Aralıq dənizi sahili ölkələrinin neft tələblərinə cavab verməsidir. Bakı-Tbilisi-Ceyhanın "Böyük İpək Yolu" xətlərindən birinə çevrilmək potensialını isbatlamışdır.

7.Azərbaycan Respublikasının müstəqilliyinin möhkəmləndirilməsi və ölkənin iqtisadiyyatının gücləndirilməsində, regional və beynəlxalq enerji təhlükəsizliyinin təmin olunmasında

TRACECA-nın rolu yüksəkdir. Avropa-Qafqaz-Asiya ölkələri arasında yüklərin qarşılıqlı olaraq faydalı və təhlükəsiz ötürülməsi sahəsində TRACECA regional nəqliyyat dəhlizləri ilə rəqabət apara biləcək bir dəhlizə çevrilmişdir. Bu nəqliyyat sistemi Azərbaycan Respublikası üçün sosial, iqtisadi, xarici siyasi nailiyyətlərinin əldə edilməsində mühüm rol oynayan sahələrdəndir.

8. Enerji hasilatı və nəqli sahəsində dünyada güclü bir rəqabətin olduğu şəraitdə Cənubi Qafqaz bölgəsinin lider dövləti kimi geosiyasi statusunu qoruyub saxlamaq, Şərq-Qərb enerji və nəqliyyat dəhlizlərini inkişaf etdirmək sahəsində fəaliyyətini gücləndirmək, eyni zamanda ölkənin tranzit potensialını artırmaq və neft strategiyasını ölkənin milli maraqlarına uyğun həyata keçirtmək Azərbaycan Respublikasının yeritdiyi siyasətin başlıca məqsədləri arasında yer alır.

9. Enerji və nəqliyyat dəhlizləri layihələrinin genişləndirilməsi, o cümlədən "Böyük İpək Yolu"na daha çox ölkənin cəlb edilməsi Avrasiya məkanındakı dövlətlərin siyasi və iqtisadi baxımdan inkişafı, həmçinin bu coğrafiyada sülhün və təhlükəsizliyin təmin olunmasında böyük əhəmiyyətə malikdir. Azərbaycanın əsas iştirakçılardan olduğu bu layihələr qlobal xarakterli inkişaf layihələri olub, regional və beynəlxalq inteqrasiyanın da başlıca istiqamətlərindəndir.

10. Azərbaycan Respublikasının enerji siyasəti və bu siyasətin tərkib hissəsi olan neft strategiyası uğurlu bir dövlət siyasətidir və dünya geosiyasi sisteminin tərkib hissəsini təşkil edir. Zəngin neft ehtiyatlarına malik bir ölkə olan Azərbaycan Respublikası üçün təbii ehtiyatlar qədər, onların nəqli də önəmli amildir. Enerji ehtiyatları və onun nəqli məsələləri Azərbaycan Respublikasının enerji və nəqliyyat dəhlizlərini yaratmaq və onları inkişaf etdirmək strategiyası ilə vəhdət təşkil edir.

**Tədqiqatın elmi yeniliyi.** Dissertasiyanın elmi yeniliyi mövzunun aktuallığına, dissertasiyada dövriyyəyə buraxılmış geniş faktoloji materiallara, elmi-nəzəri mühakimələrə və çıxarılan nəticələrə əsaslanır. Dissertasiya işində ilk dəfə olaraq Azərbaycan Respublikasının Şərq-Qərb enerji və nəqliyyat dəhlizlərini inkişaf

etdirmək siyasəti tarixi-elmi aspektdə paralel şəkildə – Azərbaycanın siyasi, sosial-iqtisadi inkişafı fonunda, beynəlxalq münasibətlərin vacib tərkib hissəsi olaraq araşdırılmış, bu siyasətin tarixi şərtləri, Azərbaycan üçün əhəmiyyəti və ümumilikdə Şərq-Qərb enerji və nəqliyyat dəhlizlərinin inkişafı üçün yeri elmi-nəzəri əsaslarla müəyyən edilmişdir.

Dissertasiyanın elmi yeniliyini şərtləndirən aşağıdakı məqamlar diqqətəlayiqdir:

- XX əsrin 90-cı illərinə doğru Cənubi Qafqazdakı geosiyasi vəziyyət beynəlxalq münasibətlər çərçivəsində təhlil edilmiş, ABŞ və Avropa İttifaqının bölgədəki maraqlarının siyasi və iqtisadi şərtləri müəyyən olunmuşdur;
- Dünya iqtisadi sistemində və geosiyasətində enerji nəqlinin əhəmiyyəti, bu fonda Azərbaycanın xarici siyasətinin prioritetləri təhlil edilmişdir;
- Azərbaycan Respublikasının enerji siyasəti və Heydər Əliyevin neft strategiyası elmi-nəzəri cəhətdən öyrənilmişdir;
- Xəzərin enerji ehtiyatlarının nəqli ilə bağlı çoxşaxəli boru kəmərləri marşrutlarının müəyyən edilməsi prosesi bütün detalları ilə izlənilmiş və Xəzər dənizi ehtiyatlarının dünya bazarlarına nəqlində qərb yolunun seçilməsi şərtləri göstərilmişdir;
- Şərq-Qərb enerji nəqlində BTC-nin yeri müəyyən olunmuş, eyni zamanda bu xətt üzrə TRACECA dəhlizinin yaradılmasının şərtləri və nəticələri nəzərdən keçirilmişdir;
- Adı çəkilən enerji və nəqliyyat layihələrinin Azərbaycan Respublikasının regional və beynəlxalq əlaqələrinin genişləndirilməsində və nəqliyyat-kommunikasiya sisteminin inkişafında rolu müəyyən edilmişdir;
- Şərq-Qərb enerji və nəqliyyat dəhlizinin inkişafında Azərbaycan Respublikasının perspektivlərinə, potensialına və roluna elmi-nəzəri qiymət verilmiş, eyni zamanda bu siyasətin Azərbaycan üçün geosiyasi əhəmiyyəti göstərilmişdir;
- Azərbaycan Respublikasının enerji və nəqliyyat dəhlizlərini inkişaf etdirmək siyasəti ilə bağlı mühüm mühakimələr yürüdülmüş, elmi nəticələr göstərilmişdir.

**Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti.** Dissertasiya işi ilk növbədə Azərbaycan Respublikasının, eləcə də ABŞ və Avropa İttifaqının neft və kommunikasiya siyasəti ilə məşğul olan qurumlar, tədqiqatçılar və ekspertlər üçün nəzəri və praktik əhəmiyyətə malikdir. Dissertasiyadakı materiallardan və əldə olunan nəticələrdən problemlə bağlı yeni tədqiqatların aparılmasında, elmi əsərlərin yazılmasında da geniş istifadə oluna bilər.

Dissertasiyadakı materiallardan həmçinin ali məktəblərdə mövzu ilə bağlı mühazirə mətnlərinin, proqramların, dərs vəsaitlərinin tərtibində və müvafiq olaraq tədrisində istifadə oluna bilər.

**Aprobasiyası və tətbiqi.** Dissertasiyanın əsas məzmunu bir sıra məqalələrdə, yerli və beynəlxalq elmi-nəzəri konfransların materiallarında öz əksini tapmışdır. Mövzu ilə bağlı Azərbaycan Respublikası, Türkiyə Cumhuriyyəti və Rusiya Federasiyasında on doqquz məqalə və konfrans materialı nəşr edilmişdir.

**Dissertasiya işinin yerinə yetirildiyi təşkilatın adı.** Dissertasiya Azərbaycan Milli Elmlər Akademiyası A.A.Bakıxanov adına Tarix İnstitutu “Əliyevşünaslıq” şöbəsində yerinə yetirilmiş, şöbənin 2018-ci il 20 dekabr tarixli iclasında müzakirə edilərək Müdafiə Şurasına təqdim edilmişdir.

**Dissertasiyanın ümumi həcmi.** Dissertasiya giriş, üç fəsil, Nəticə, İstifadə edilmiş ədəbiyyat siyahısı, Əlavələr və İxtisarların siyahısından ibarətdir. Dissertasiyanın ümumi həcmi (ədəbiyyat siyahısı, əlavələr, ixtisarların siyahısı istisna olunmaqla) 251.555 işarə təşkil edir. Dissertasiyanın əsas məzmunu: Giriş: – 33.264, I fəsil: – 75.156, II fəsil: – 64.029, III fəsil: – 63.948, Nəticə: – 12.482 işarədən ibarətdir. Tədqiqat işi 163 səhifədən ibarətdir.

## II. DİSSERTASİYANIN ƏSAS MƏZMUNU

Dissertasiyanın **“Giriş”** hissəsində mövzunun aktuallığı əsaslandırılmış, öyrənilmə səviyyəsi araşdırılmış, mənbə bazası təhlil olunmuş, tədqiqatın məqsəd və vəzifələri müəyyənləşdirilmiş, metodoloji əsası aydınlaşdırılmış, elmi yenilikləri, nəzəri və praktik əhəmiyyəti göstərilmişdir.

Dissertasiya işinin birinci fəsli **"Şərq-Qərb enerji və nəqliyyat dəhlizlərinin yaradılmasının zəruriliyini doğuran tarixi şərait"** adlanır və iki yarımfəsildən ibarətdir. Birinci yarımfəsildə XX əsrin 90-cı illərinin əvvəllərində Cənubi Qafqaz regionunda geosiyasi vəziyyət, Sovet İttifaqının tərkibindən çıxmış region dövlətlərinin suverenlik qazanmasından və böyük güc mərkəzlərinin regionda geoiqtisadi maraqlarından bəhs edilir. Qeyd edilir ki, karbohidrogen ehtiyatları ilə zəngin Xəzər dənizi Qərbin və digər regional güclərin diqqət mərkəzinə çevrilmişdir. Bunlar ABŞ, Qərb dövlətləri, Rusiya Federasiyası, Türkiyə Cümhuriyyəti və İran İslam Respublikası, Şərqdən isə Çin kimi dövlətlər idi. Onların bölgəyə olan maraqlarını həyata keçirməyə can atmağa başlamasının əsas səbəbi regionun zəngin enerji ehtiyatlarına sahib olmaqla strateji coğrafiyada yerləşməsi, Avrasiya üçün mühüm nəqliyyat mərkəzi olması idi.

"Soyuq müharibə"dən zəfərlə çıxmış, yeni model beynəlxalq münasibətlər mərhələsini formalaşdıran ABŞ Xəzər regionu üçün çoxaspektli və çoxbucaqlı siyasət həyata keçirməyə başladı. Klinton administrasiyasının Dövlət Departamentinin açıqlamalarında "Xəzər hövzəsinin enerji daşıyıcıları Qafqaz ölkələrində müstəqilliyə dəstək və çiçəklənmədə açar rolunu oynayır" kimi fikirlər var idi[1]. Z.Bjezinski "Böyük şahmat lövhəsi" adlı əsərində yazırdı ki, "Azərbaycan Xəzər dənizi və Mərkəzi Asiyanın sərvətlərinin Avropaya açılması üçün açar roluna malikdir. ABŞ Cənubi Qafqaz və Mərkəzi Asiya siyasətində ehtiyatlı hərəkət edərək, stabilliyin qorunmasına çalışmalıdır"[2].

Coğrafi yaxınlığına, geostrateji məkanda yerləşməsinə, əhəmiyyətli enerji resurslarının mövcudluğuna görə Azərbaycan Avropa dövlətlərinin ənənəvi maraq dairəsinə daxil olan ölkədir[3]. 1991-ci ildən Azərbaycan, Gürcüstan, Ermənistan TACİS regional maliyyələşdirmə proqramının üzvü olmuşlar. Şərq-Qərb nəqliyyat yollarının qovşağında əlverişli coğrafi mövqedə yerləşməsi Qafqazı ticarət, hərbi və siyasi

---

[1]Чернявский, С. И. Кавказская стратегия Вашингтона // - Москва: Международная жизнь, - 1999. № 1, - s.23.
[2]Бжезинский З. Великая шахматная доска, s.62.
[3]Sadıqov, R. Avropa İttifaqının Şərq siyasətində Cənubi Qafqaz faktoru: siyasi elmlər üzrə fəlsəfə doktoru dissertasiyası) / - Bakı, 2011, s.52.

baxımdan cazibəli edirdi[1]. Eyni zamanda Mərkəzi Asiya enerji ehtiyatlarının rahat daşınması üçün Azərbaycan və Gürcüstan Qara və Xəzər dənizlərini birləşdirməklə əlverişli nəqliyyat keçidini təmin edir[2]. Aİ ilə Azərbaycan arasında əməkdaşlığın qəbul edilmiş 10 prioritet istiqamətləri içərisinə "Aİ ilə Azərbaycan arasında enerji və nəqliyyat əməkdaşlığının dərinləşməsi"nin də əlavə edilməsi[3] Aİ-nın Azərbaycanın Şərq-Qərb enerji və nəqliyyat dəhlizlərini inkişaf etdirilməsində marağını sübut edən faktlardandır.

Cənubi Qafqazda maraqları və iddiaları olan daha bir güc Rusiya Federasiyasıdır. SSRİ dağıldıqdan sonra Qara dənizdə sahil xətti çox qısalan RF hidrogen resursları ilə zəngin olan və isti dənizlərə ən qısa yol hesab etdiyi və özünün də cənub sərhəddi olan Qafqaz regionuna xüsusi əhəmiyyət verməyə başladı və 1990-cı illərdə olduğu kimi, bu gün də Xəzər və Qafqaz regionunda öz nüfuzunu qorumaq üçün hər cür siyasi, iqtisadi və hərbi vasitələrdən istifadədən çəkinmir.

Azərbaycanın müstəqillik qazandıqdan sonra geniş siyasi, diplomatik və iqtisadi əlaqələr saxladığı dövlət - Türkiyə Cümhuriyyəti olmuşdur. 1999-cu il noyabrın 18-də ATƏT-in İstanbulda keçirilmiş Zirvə toplantısı çərçivəsində XX əsrin çox mühüm layihəsi hesab edilən "BTC Əsas İxrac Boru Kəməri vasitəsilə Azərbaycan, Gürcüstan, Türkiyə ərazilərindən xam neftin nəql edilməsinə dair Saziş"in Azərbaycan, Gürcüstan, Türkiyə və ABŞ prezidentləri tərəfindən imzalanması region ölkələrinin strateji əməkdaşlığı və Avropaya inteqrasiyası sahəsində mühüm addım oldu. Türkiyənin Cənubi Qafqaz regionunda Azərbaycana göstərdiyi siyasi dəstək BTC layihəsinin reallaşması və müasir "Böyük İpək Yolu" adlanan Avropa-Qafqaz-

---

[1]Cohen, A. Europe's strategic dependence on Russian energy. Backrouder: The Heritage Foundation, № 2083, 5 November 2007, p.1-13: [Electronic resource] / URL:http://www.policyarchive.org/handle/10207/bitstreams/13043.pdf(file:///C:/Users/User/Downloads/13043%20(1).pdf

[2]Winrow, G.M. Energy security in the Black sea-Caspian region// Perceptions, Autumn 2005, p.85-98:[Electronic resource] / URL:http://www.sam.gov.tr/wp-content/uploads/2012/01/Winrow.pdf

[3]Məmmədov, N.İ. Xarici siyasət: reallıqlar və gələcəyə baxış /N.Məmmədov. - Bakı: Qanun, - 2013. -s.212.

Asiya-TRACECA nəqliyyat dəhlizinin inkişaf etdirilməsinə yol açmış oldu.

Azərbaycan Respublikasının həm Şərq-Qərb nəqliyyat, həm də enerji layihələrinin yolları Ermənistanla olan müharibə səbəbindən Gürcüstan Respublikası ərazisindən həyata keçirildi. Bölgədə Azərbaycan-Gürcüstan və Türkiyədən ibarət bir halqa formalaşmağa başladı. Bu üç ölkənin 1990-cı illər boyunca ortaq şəkildə həyata keçirdikləri layihələr və birgə fəaliyyətlərinin nəticələri 2000-ci illərdə görülməyə başlandı. Beləliklə, hər üç ölkənin, xüsusilə də Türkiyə və Azərbaycanın artan siyasi və iqtisadi imkanları və fəal siyasi hərəkətləri ilə, qarşılıqlı siyasi təcrübə ilə də dəstəklənən strateji bir ittifaq qurma yanaşması günümüzdə aşağıda adı çəkiləcək bölgə layihələrinin gerçəkləşməsinə və ortaq bir gələcək qurma təxəyüllərinə daha ətraflı bir çərçivədən baxmağa imkan verir[1]. İlk olaraq Bakı-Supsa boru kəməri, daha sonra isə daha böyük həcmli Bakı-Tbilisi-Ceyhan və gələcəkdəki siyasi və iqtisadi proseslərin təbii nəticəsi kimi Bakı-Tbilisi-Ərzurum, Bakı-Tbilisi-Qars dəmiryolu magistralları reallaşdı.

Azərbaycan Respublikasının Şərq-Qərb enerji və nəqliyyat dəhlizlərini inkişaf etdirməsi siyasətində Mərkəzi Asiya dövlətləri əməkdaşlığı xüsusi yer tutur. TRACECA proqramının nəqliyyat xətlərindən biri Aktau-Bakı-Tbilisi-Poti-Batumi dəmir yolu şəbəkəsinin inkişaf etdirilməsi üçün Azərbaycan-Qazaxıstan-Gürcüstan arasında ortaq iş aparılır. TRACECA proqramının iştirakçısı olan Özbəkistanın nəqliyyat dəhlizinin inkişafında maraqları vardır. Bu layihə dənizə çıxışı olmayan ölkə kimi Özbəkistanın da TransAvropa və TransAsiya nəqliyyat şəbəkəsinə qoşulmasına imkan verir.

İkinci yarımfəsildə Şərq-Qərb enerji və nəqliyyat dəhlizlərinin yaradılmasının tarixi-siyasi şəraiti və yeni dəhliz siyasətində Azərbaycan Respublikasının yeri və mövqeyi işıqlandırılmışdır. Müstəqilliyin ilk illərində Azərbaycan neftinin Qərb şirkətləri tərəfindən

---

[1]Mehdizadə, G.Z. Azərbaycan Respublikasının Şərq-Qərb enerji və nəqliyyat dəhlizlərinin inkişafında Türkiyə və Gürcüstan ilə strateji əməkdaşlığı (XX əsrin 90-cı illəri)// Pedaqoji Universitetin Xəbərləri, - 2019, c.67. №4, - s.159-167.

işlənməsi və qərbyönümlü siyasət yeritmək cəhdləri, qərb şirkətləri ilə danışıqlar onsuz da o dövrdə çox ağır siyasi vəziyyətdə olan Azərbaycana qonşu dövlətlər – Rusiya və İran tərəfindən göstərilən təzyiqlərin artmasına səbəb oldu. Belə bir tarixi şəraitdə 1993-cü ilin mayında ARDNŞ ilə xarici şirkətlər arasında "Azəri", "Çıraq" və "Günəşli" yataqlarında birgə fəaliyyət haqqında 6-cı memorandum imzalandı[1]. Rusiya hökumətini təmsil edən "Lukoil" neft şirkəti konsorsiuma daxil edilmələrini Azərbaycan hökumətindən təzyiqlər yolu ilə tələb edirdilər. Ermənistanın hərbi təcavüzü, 1992-1993-cü illərdə Dağlıq Qarabağ ətrafında gedən müharibə, ölkənin ağır müharibə şəraitinə düçar olması ilə əlaqədar olaraq vəziyyətin gərginləşməsi və s. məqamlar bu neft müqavilələrini işləməyə qoymadı[2].

Heydər Əliyevin hakimiyyətə gəlməsi vəziyyəti dəyişdirdi. Neft "oyunu" müvəqqəti olaraq donduruldu. Müqavilənin mahiyyəti kütləvi informasiya vasitələri ilə geniş ictimaiyyətə çatdırıldı. Ölkənin milli maraqlarına xələl gətirəcəyi nəzərə alınaraq müqavilələrdən imtina edildi[3]. Balanslaşdırılmış siyasət yeridilərək RF ilə siyasi münasibətlər qaydaya salındı. Türkmənistan və İranla da qarşılıqlı münasibətlər normallaşdırıldı. 1993-cü ilin avqustunda RF-sının neft şirkəti olan "Lukoil" şirkəti də Xəzərin neft layihələrində iştirak etməyə danışıqlara cəlb olundu. SOCAR-ın "Azəri", "Çıraq" və "Günəşli" yataqları üzrə payından 10% Lukoil şirkətinə verildi[4].

---

[1]Heydər Əliyev. İki cilddə. 2-ci cild. Bakı: Turxan NPB, 2013. -704 s.

[2]Pinar, İ. Azerbaijan's Foreign Policy and Challenges for Energy Security // Middle East Journal, Vol.63. No.2, (Spring, 2009) -p.227-239: [Electronic resource] / URL:, http://repository.bilkent.edu.tr/bitstream/handle/11693/22629/bilkent-research-paper.pdf?sequence=1&isAllowed=y

[3]Müstəqil Azərbaycan Respublikasının yeni neft strategiyası uğurla həyata keçirilir. "Əsrin müqaviləsi"nin 5-ci ildönümünə həsr olunmuş təntənəli mərasimdə ARDNŞ-in birinci vitse-prezidenti, Milli Məclisin deputatı İlham Əliyevin məruzəsi // Bakı: İqtisadiyyat və həyat jurnalı, - 1999. №7-9, - s.7-17.

[4]Nassibli N. Azerbaijan's geopolitics and oil pipeline issue, Journal of international affairs, December 1999 – February 2000, Volume IV - Number 4, - pp.104-107: [Electronic resource] / URL:http://sam.gov.tr/tr/wp-content/uploads/2012/01/NASIB-NASSIBLI.pdf

Azərbaycanın dünyaya yollarını açacaq Şərq-Qərb dəhlizinin açılması bu dövrdə tarixi zərurətə çevrilmişdi. 1994-cü il 20 sentyabrda dünya neft sənayesi tarixinə "Əsrin müqaviləsi" adı ilə daxil olan Azərbaycanın neft sənayesinin inkişafında yeni mərhələnin başlanğıcını qoyan kontrakt imzalandı[1]. Bu saziş ARDNŞ ilə ABƏŞ arasında "Əsrin müqaviləsi" adlandırılan "Xəzər dənizinin Azərbaycan sektorundakı "Azəri", "Çıraq" və "Günəşli" yataqlarında neftin ortaq işlənməsi və pay bölgüsü haqqında Saziş" (Hasilatın Pay Bölgüsü Sazişi – HPBS) adlanır[2].

Beləliklə, enerji dəhlizi siyasəti həyata keçirilməyə başlandı. 1994-cü ildə atəşkəs rejimi haqqında "Bişkek protokolu"nun "Əsrin müqaviləsi" ilə eyni ildə imzalanması bu tarixdən etibarən Azərbaycan Respublikasının neft və təhlükəsizlik siyasətinin paralel şəkildə inkişaf etməsinə zəmin yaratdı[3].

Dissertasiyanın **"Azərbaycan Respublikasının yeni enerji dəhlizi və kəmər siyasəti. Karbohidrogen ehtiyatlarının Avropaya nəqlində Şərq-Qərb enerji dəhlizinin rolu"** adlı ikinci fəsli üç yarımfəsildən ibarətdir. Burada Xəzər dənizi ilə dünyanın enerji bazarlarını və regionun əsas enerji istehlakçılarını birləşdirəcək çoxvariantlı yeni enerji

---

[1]Xəzər dənizinin Azərbaycan sektorunda "Azəri", "Çıraq" yataqlarının və "Günəşli" yatağının dərinlikdə yerləşən hissəsinin birgə işlənməsi və neft hasilatının pay bölgüsü haqqında 924 №-li Qanuna dair Material (Bakı: 15 noyabr 1994-cü il) //Azərbaycan Respublikasının Milli Məclisinin arxivi, fond 2941, Siyahı 1, iş №245, s.126

[2]Xəzər dənizinin Azərbaycan sektorunda "Azəri", "Çıraq" yataqlarının və "Günəşli" yatağının dərinlikdə yerləşən hissəsinin birgə işlənməsi və neft hasilatının pay bölgüsü haqqında Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti ilə AMOKO KASPİAN Sİ PETROLEUM LİMİTED, Bİ-Pİ EKSPLOREYŞN (KASPİAN Sİ) LİMİTED, DELTA NİMİR XƏZƏR LİMİTED, DEN NORSKE STATS OLYESELSKAP a.s. LUKoyl SƏHMDAR CƏMİYYƏTİ, MakDERMOTT AZƏRBAYCAN İNK., PENNZOYL KASPİAN KORPOREYŞN, REMKO XƏZƏR ENERJİ LİMİTED, TÜRKİYE PETROLLERİ A.O. YUNOKAL XƏZƏR, L.T.D. arasında Sazişin qəbul və təsdiq edilməsi, onun həyata keçirilməsinə icazə verilməsi barədə Azərbaycan Respublikasının Qanunu. "Əsrin müqaviləsi" – artıq reallıqdır (Rəsmi sənədlər): [Elektron resurs] /URL:http://files.preslib.az/site/10il/gl2.pdf

[3]Зенькович, Н.А. Илхам Алиев. Взгляд из Москвы/ Н.А.Зенькович. -Москва: Яуза, Эксмо, - 2008.- с.127-132.

dəhlizləri və ixrac kəmərlərinin çəkilməsi təşəbbüsü və bu yolda atılan addımlar təhlil edilir.

Azərbaycanın dünya bazarlarına çıxışa malik olmaması səbəbindən o dövrdə yeganə nəql-magistralı olan Bakı-Novorossiysk neft-boru kəmərindən istifadə etmək qərarı verildi. Bu, BTC neft boru kəmərinin tikilib başa çatdırılmasına qədər olan dövr ərzində neftin daşınmasında heç bir ləngimənin olmaması üçün atılmış addım sayılır. Bu kəmərlə neft nəqlinə dair ikitərəfli müqavilə 1996-cı il fevralın 18-də Moskvada imzalanmışdır[1]. RF müqavilənin 2-ci bəndində qəbul edirdi ki, Azərbaycan neftinin sahibi deyildir və Azərbaycan neftinə mülkiyyət hüququ bu neftin istehsalçısına məxsusdur. Bu, Azərbaycanın yeni neft strategiyasının əldə etdiyi mühüm nailiyyəti kimi qiymətləndirilməlidir.

Azərbaycan və Qazaxıstan neftinin Novorossiysk portu ilə ixracı Rusiyaya regiondakı vəziyyətə təsir mexanizmi məsələsində etibarlı alət kimi istifadə etməyə imkan verirdi. Xəzər neftinin xarici bazarlara çatdırılmasında Rusiya variantına alternativ xətt-Bakı-Supsa oldu. 1996-cı il martın 8-də Azərbaycan və Gürcüstan Bakı-Supsa neft kəmərinin çəkilməsi barədə razılığa gəldilər. “Əsrin müqaviləsi”ndə iştirak edən şirkətlərin qurduğu ABƏŞ, ARDNŞ və Gürcüstan hökuməti arasında bağlanmış müqavilə “Azəri”, “Çıraq”, “Günəşli” yataqlarından çıxan ilkin Azərbaycan neftinin Bakı-Supsa neft kəməri vasitəsi ilə nəqlini nəzərdə tuturdu[2]. 1999-cu ilin aprelində Qərb ixrac boru kəmərinin və Supsa terminalının rəsmi açılış mərasimi oldu[3].

“Xəzərin enerji ehtiyatlarının nəqli ilə bağlı çoxşaxəli boru kəmərləri marşrutlarının müəyyən edilməsi məsələləri” adlı ikinci yarımfəsildə göstərilir ki, o dövrdə “boru” məsələsinin seçilməsi geniş diapazona malik idi. Azərbaycan neftinin beynəlxalq bazarlara nəqli

---

[1]Azərbaycan Respublikasının Milli Məclisinin arxivi, fond 2941, Siyahı 1, İş №397, s.294.

[2]“Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin Supsada, Bakı-Supsa neft kəmərinin açılışına həsr olunmuş təntənəli mərasimdə nitqi” : [Elektron resurs] / URL:https://lib.aliyev-heritage.org/az/1999520.html

[3]Azərbaycanın neft strategiyasının düzgünlüyünün parlaq sübutu // Bakı: “İqtisadiyyat və həyat jurnalı” (Azərbaycan Respublikası Nazirlər Kabinetinin aylıq iqtisadi jurnalı), - 1999. №3-6, - s.4-17.

üçün 7-8 marşrut gündəmə gəlmiş, lakin bunlardan yalnız beşi rəsmi olaraq müzakirə edilmişdir 1) Şimal kəməri: Bakı-Novorossiysk; 2) Qərb kəməri: Bakı-Supsa; 3) Cənub kəməri: Bakı-İran; 4) Şərq kəməri: Əfqanıstan və Pakistandan keçən kəmər; 5) Cənub-qərb kəməri: Bakı-Ceyhan[1].

Xəzər neftinin nəqli üçün daha uyğun olan marşrutun seçilməsində çoxlu maraqlar toqquşurdu. Son olaraq neftin dünya bazarlarına axması üçün üç istiqamət müəyyənləşdirildi. Birincisi - Rusiya ərazisindən keçən Şimal istiqamət, ikincisi - Gürcüstan, Türkiyə ərazisindən keçən Qərb istiqamət, üçüncüsü - Cənub istiqamət, yəni İran, Əfqanıstan və Pakistan ərazisindən keçən istiqamət. Bunlardan ikisi (Bakı-İran və Bakı-Pakistan kəmərləri) gündəmə gəldikləri ilk gündən etibarən ciddi müqavimətlə üzləşmişdi. Qərb istiqamətinə daha böyük maştabda "Böyük İpək Yolu"nun bərpası konteksində Avrasiya nəqliyyat dəhlizi adlanan bir layihənin həyata keçirilməsi fonu kimi baxılırdı. "Erməni marşrutu" isə Ermənistanla sülh müqaviləsi olmadığı müddətdə və Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi Azərbaycan Respublikasının ərazi bütövlüyünün bərpa olunması şərtləri həyata keçirilmədiyi müddətdə mümkün deyildi.

"Xəzər dənizi ehtiyatlarının dünya bazarlarına nəqlində qərb yolunun seçilməsi. Bakı-Tbilisi-Ceyhan əsas neft kəməri layihəsinin reallaşması" adlı üçüncü yarımfəsildə Əsas İxrac Boru Kəmərinin reallaşması məsələləri ətraflı təhlil edilmişdir. 1997-ci ilin sonlarında Bakıda Bakı-Ceyhan neft boru kəmərinin tikintisi, Azərbaycan neftinin Qərb istiqamətində daşınması haqqında normativ-hüquqi sənədlər silsiləsindən iki razılıq imzalandı[2]. BTC-nin reallaşmasına təsir edən əsas mərhələlərdən biri 1998-ci ilin sentyabrında Bakıda keçirilən bu istiqamət üzrə "Böyük İpək Yolu"nun bərpasına və dirçəldilməsinə həsr olunmuş beynəlxalq konfransdır. 1998-ci il 28 oktyabrda isə BTC-nin reallaşdırılması üçün Ankara Bəyannaməsi imzalandı. 1999-cu il noyabrın 18-də "Ankara Bəyannaməsi"nə müvafiq olaraq, ATƏT-in

---

[1]Aslanlı, A. Haydar Aliyev Dönemi Azerbaycan Dış Politikası /A.Aslanlı, İ.Hesenov - Ankara: Platin yayıları, - 2005. - s.99-100.

[2]Жильцов, С.С. Геополитика Каспийского региона. / С.С.Жильцов, И.С.Зонн, А.М.Ушков - Москва: Международные отношения, - 2000. - с.118.

İstanbul sammitində Azərbaycan Respublikası, Gürcüstan, Türkiyə Cümhuriyyəti Prezidentlərinin "Xam neftin BTC ƏİBK vasitəsilə nəqli barədə hökumətlərarası müqavilə"ni imzalaması bu layihənin reallaşmasını tam hüquqi şəkildə mümkün etdi[1]. 2002-ci il sentyabr ayının 18-də Bakıda Azərbaycan, Gürcüstan və Türkiyə prezidentlərinin, həmçinin ABŞ-ın energetika nazirinin iştirakı ilə BTC Əsas İxrac Boru Kəmərinin təməli qoyuldu.

Kəmərinin inşasına 2003-cü ilin aprelində, neftlə doldurulmasına isə mayın 18-də başlandı. 25 may 2005-ci ildə kəmərin Azərbaycan ərazisindən keçən hissəsinin istifadəyə verilməsi mərasimi keçirilərək, Səngəçal terminalından boru xəttinə ilk neft vuruldu, oktyabr ayında isə kəmərin Gürcüstan hissəsi istifadəyə verildi. 4 iyun 2006-cı ildə Xəzər nefti ilə yüklənmiş ilk tanker Ceyhan limanından Avropaya yola salındı. 13 iyul 2006-cı ildə isə Ceyhanda kəmərin təntənəli açılış mərasimi keçirildi[2].

Bu kəmər yalnız kommunikasiya sistemi deyil, Cənubi Qafqazın qloballaşma siyasətidir. BTC neft kəməri geosiyasi xarakter daşımaqla, dünya proseslərinə təsir etməklə "İpək yolu"nun və türk ölkələrinin də əsas magistral kəməridir. Bu gün BTC kəməri dünyanın neft "arteriya"larından biri kimi neft kəmərləri sisteminə daxil olmuşdur.

Dissertasiya işinin **"Avropa - Qafqaz - Asiya transmilli nəqliyyat kommunikasiya dəhlizi və onun Azərbaycan Respublikası üçün geoiqtisadi və geosiyasi əhəmiyyəti"** adlı üçüncü fəsli üç yarımfəsildən ibarətdir. Birinci yarımfəsildə Avropa - Qafqaz - Asiya (TRACECA) nəqliyyat dəhlizinin yaradılması və onun Azərbaycan nəqliyyat-kommunikasiya sisteminin inkişafında rolu məsələləri təhlil edilmişdir. TRACECA-nın Qafqaz regionundan keçən yeni Avropa-Asiya nəqliyyat dəhlizi layihəsi kimi imkan və perspektivləri araşdırılmışdır.

Avropa-Qafqaz-Asiya (TRACECA) beynəlxalq nəqliyyat dəhlizinin əsası 1993-cü ilin mayında Aİ üzvləri arasında imzalanan "Brüssel Bəyannaməsi" adlı sazişlə qoyuldu. Burada qədim Şərq-Qərb

---

[1]Heydər Əliyevin Prezident sarayında respublika ictimaiyyəti nümayəndələri qarşısında ATƏT-in İstanbul zirvə görüşünün yekunlarına həsr olunmuş nitqi // Xalq qəzeti. - 1999, 26 noyabr. - s.1.
[2]ARDNŞ-in 2006-cı il üçün illik hesabatı, s.5.

dəhlizi olan "İpək Yolu"nun müasir texnologiyalarla bərpa edilməsi, nəqliyyat-kommunikasiya infrastrukturunun yenidən qurulması və inkişafı qərara alınmışdır[1]. Bu layihə Aİ-nın TACİS layihəsi çərçivəsində həyata keçirilirdi. 1993-cü ildən etibarən TRACECA beynəlxalq regionlararası layihəsi üçün 111.605.000 avro dəyərində 53 layihə həyata keçirilmişdir. TRACECA proqramı çərçivəsində "Nəqliyyatın idarə edilməsinin treyninqi", "Nəqliyyatın hüquqi və tənzimləyici çərçivəsi", "TRACECA nəqliyyat dəhlizində vahid tarif siyasətinin tətbiqi", "Sərhəd-keçid qaydalarının sadələşdirilməsi", "Qafqaz dəmir yollarının bərpası" və onlarla digər texniki yardım və investisiya layihələri həyata keçirilmişdir.

TRACECA çərçivəsində nəqliyyat infrastrukturu ilə əlaqəli 65-dən çox layihəni maliyyələşdirilərək regionda donor təşkilatlar və özəl sərmayəçilərin fəaliyyətinin təşviq edilməsində mühüm rol oynamışdır[2]. TRACECA-nın reallaşması ABŞ və Avropa İttifaqı ölkələrini Türkiyəyə və Aralıq dənizi bölgəsinə çıxarır.

Hazırkı dövrdə tarixi "Böyük İpək Yolu"nun bərpası siyasi, iqtisadi və mənəvi baxımdan daha böyük əhəmiyyətə malikdir. Əvvəla, əhatə dairəsi daha miqyaslıdır və bu yolun üzərində yerləşən 34 ölkənin milyonlarla əhalisinin iqtisadi fəaliyyətinə güclü təkan verir və iştirakçı ölkələrin suverenliyinin möhkəmlənməsi, siyasi və iqtisadi müstəqilliyinin dərinləşməsi baxımından mühüm əhəmiyyət daşıyır. Başqa sözlə, bu yol yer kürəsi əhalisinin 1/3 hissəsinin əhatə edən 48,7 mln kv.km ərazini nəqliyyat-iqtisadi məkanda birləşdirməyə imkan vermişdir[3].

---

[1]Самедзаде, З.А. Этапы большого пути - Экономика Азербайджана за полвека, ее новые реалии и перспективы / З.А. Самедзаде. - Баку: Нурлар, - 2004. - 936 с.

[2]Мехтизаде, Г.З. Влияние проекта TRACECA на расширение региональных и международных отношений Азербайджанской Республики, Современная научная мысль //- Москва:Научный журнал НИИ истории, экономики и права. НИИ ИЭП, - 2019.№ 1,- с.174-179.

[3]Чернявский, С.И. Политика США по укреплению своего влияния в Азербайджане. Независимый Азербайджан: новые ориентиры:[в 2-х томах] / С.И.Чернявский. - Москва: Рос. Ин-т стратег. исследований, - т.2. -2000.-с.117-136.

İkinci yarımfəsildə 8-9 sentyabrda 1998-ci ildə Bakıda keçirilmiş tarixi Bakı Sammitinin keçirilməsi prosesi və bu konfransın əhəmiyyətindən bəhs olunur. Bu Sammitin ən mühüm hadisəsi Azərbaycan, Bolqarıstan, Gürcüstan, Ermənistan, Qazaxıstan, Qırğızıstan, Moldova, Rumınya, Tacikistan, Türkiyə, Özbəkistan və Ukrayna arasında "Avropa-Qafqaz-Asiya nəqliyyat dəhlizinin inkişafına dair Əsas Çoxtərəfli Saziş"in imzalanmasıdır. 32 dövlətin və 13 beynəlxalq təşkilatın nümayəndələrinin iştirakı ilə keçirilən konfransda Aİ-nın TRACECA proqramı əsasında "Avropa-Qafqaz-Asiya" nəqliyyat dəhlizinin inkişafı üzrə beynəlxalq nəqliyyat haqqında "Çoxtərəfli Əsas Saziş və onun beynəlxalq ticarət gəmiçiliyi, gömrük proseduru və sənədlərin işlənməsi üzrə texniki əlavələri haqqında" sənəd, həmçinin "Bakı Bəyannaməsi" qəbul edildi[1].

Çoxtərəfli Əsas Sazişin VII bölməsinin 9-cu maddəsinə və 2000-ci ilin martın 10-11-də Gürcüstanda keçirilmiş konfransda qəbul edilmiş qərara uyğun olaraq, TRACECA Hökumətlərarası Komitəsinin Daimi Katibliyinin Bakıda yaradılması qərara alındı. 2001-ci ilin fevralın 21-də Bakıda Daimi Katibliyin rəsmi açılışı keçirilmişdir[2].

Üçüncü yarımfəsildə TRACECA layihəsinin Azərbaycan Respublikasının regional və beynəlxalq əlaqələrinin genişləndirilməsinə təsiri məsələləri araşdırılmışdır. "İpək yolu"nun bərpası prosesində Azərbaycanın nüfuzlu beynəlxalq təşkilatlarla (BMT, NATO, Aİ, AŞ) münasibətləri inkişaf etmişdir. Beynəlxalq təşkilatlarda öz mövqeyini möhkəmləndirən Azərbaycan GUAM, QDİƏT, İKT və s. kimi təşkilatlarda fəal iştirak etmişdir. "İpək Yolu"nun fəal iştirakçıları olan Azərbaycan və Gürcüstan GUAM üzvü olan Ukrayna üçün Mərkəzi Asiya və Cənubi Qafqazı Avropa ilə birləşdirən alternativ nəqliyyat-kommunikasiyası körpüsü sayılır. GUAM üzvləri Rusiyaya alternativ olan, Avropadan Asiyaya qədər uzanan "İpək yolu" layihəsinin (TRACECA) reallaşmasına ciddi ehtiyac duyur və bu işdə əhəmiyyətli

---

[1]Əliyev, A.Ə. Heydər Əliyev "İpək yolu"nun bərpasının böyük təşkilatçısıdır / A.Ə.Əliyev, Ə.C.Qasımov, N.Ə.Qasımov // İpək yolu jurnalı, Bakı: - 1998. №4, - s. 72-77.

[2]TRACECA Hökumətlərarası Komitəsinin Azərbaycan üzrə Milli Katibliyi. Ümumi şöbə. Cari arxivi. Sənədlər və materiallar.

rol oynayırlar[1]. TRACECA layihəsinin reallaşması Azərbaycanın geosiyasi əhəmiyyətini daha da artırmış, region ölkələri arasındakı əməkdaşlıq daha da genişlənmiş, həmçinin Azərbaycan-ABŞ, Azərbaycan-Rusiya, Azərbaycan-Türkiyə, Azərbaycan-Gürcüstan və digər ikitərəfli münasibətlər çoxşaxəli şəkildə inkişaf etmişdir. Bu, bir tərəfdən bölgəyə böyük iqtisadi və siyasi imkanlar gətirərkən, digər tərəfdən, onu beynəlxalq qarşıdurmanın da mərkəz nöqtələrindən birinə çevirir. İqtisadi və siyasi dividendləri maksimal və səmərəli bir şəkildə istifadə etməyi bacaran Azərbaycan Respublikası həmin rəqabətin ölkə və eləcə də bölgə üçün əlverişsiz və təhlükəli tərəflərini neytrallaşdırmaq siyasəti yürütmüşdür.

"Böyük İpək Yolu"nun reallaşması ilə bu yol üzərində yerləşən Özbəkistan, Türkmənistan, Qazaxıstan, Qırğızıstan kimi dövlətlərlə iqtisadi əməkdaşlıq və dövlətlərarası siyasi əlaqələrin inkişafı, Türkiyənin TRACECA proqramı üzrə layihələrə fəal qoşulması Azərbaycanın türk ölkələri ilə əlaqələrinin dərinləşməsində bu layihənin rolunu danılmaz edir.

Bu sahədə regional əməkdaşlığın genişləndirilməsinə, Şərq-Qərb nəqliyyat dəhlizinin inkişafına xidmət edən çox mühüm layihələrdən biri Qars-Ahalkalaki-Tbilisi-Bakı layihəsidir[2]. Layihənin siyasi əhəmiyyəti Ermənistanla müharibə səbəbindən yaranmış blokadanın aradan qaldırılması, Azərbaycanla Türkiyə arasında birbaşa dəmir yolu əlaqələrinin genişləndirilməsidir. Müasir beynəlxalq münasibətlər sisteminin başlıca bölgələrindən olan Cənubi Qafqaz, ələlxüsus Azərbaycan Respublikasının enerji ehtiyatları, eləcə də geostrateji əhəmiyyətli enerji-nəqliyyat xətləri bu bölgənin inteqrasiyasını son iki onildə sürətləndirmişdir. Əldə edilən imkanlardan daha da səmərəli istifadə etmək və müasir standartlara cavab verən nəqliyyat-kommunikasiya şəbəkəsi yaratmaq, davamlı nəqliyyat xidmətinin

---

[1]Starr, F., Cornell S. Baku-Tbilisi-Ceyhan pipeline. Oil Window to the West: [Electronic resource] / URL:https://www.silkroadstudies.org/publications/silkroad-papers-and-monographs/item/13143-the-baku-tbilisi-ceyhan-pipeline-oil-window-to-the-west.html

[2]Bakı-Tbilisi-Qars Avropanı Asiya ilə birləşdirən dəmir yoludur // Azərbaycan qəzeti. - 2006, 11 noyabr. - s.6.

təmini və bu istiqamətlərdə fəaliyyətin gücləndirilməsi, tranzit potensialının düzgün dəyərləndirilib ondan səmərəli istifadəni təşkil etmək və nəqliyyat sisteminin beynəlxalq nəqliyyat şəbəkəsinə inteqrasiyası istiqamətində fəaliyyətləri gücləndirmək kimi tədbirlərin görülməsi qarşıda duran vəzifələr hesab edilməlidir[1].

"Böyük İpək Yolu"nun bərpası və Şərq-Qərb enerji dəhlizinin yaradılması XXI yüzilliyin astanasında qlobal tarixi hadisələrdəndir. Bu layihələrin reallaşması ilə yol boyunca yerləşən dövlətlər arasında iqtisadi əlaqələr möhkəmlənir və bu yolun inkişafı üçün iqtisadi islahatların həyata keçirilməsinin sürətlənməsinə şərait yaranır.

Dissertasiyanın **"Nəticə"** hissəsində aparılan elmi araşdırmalara, əldə edilmiş elmi nəticələrə yekun vurulmuşdur.

**Dissertasiyanın əsas məzmunu müəllifin nəşr olunmuş aşağıdakı məqalələrində öz əksini tapmışdır:**

1. Müstəqil dövlətlərin "Xəzər dənizi" XX əsrin 90-ci illərində. "Ulu öndər Heydər Əliyev irsində multikultural və tolerant dəyərlər". Beynəlxalq elmi konfransın materialları,- Bakı:- 3-6 may, - 2016. II hissə, - s.162-164.

2. "Великий Шелковый путь: Вчера и сегодня-история и реальность". Uluslararası İpək Yolu Kültür Diyaloğu, Türkiye,- Erzurum: - 5-6 mayıs, - 2016. - s.376-381.

3. Qədim odlar diyarının Tarixi İpək Yolunun bərpası-TRASEKA layihəsinə töhvəsi. "Multikulturalizm Azərbaycanın dövlət siyasəti və cəmiyyətin həyat tərzidir"adlı IV Beynəlxalq elmi konfransın materialları,- Bakı: -7-8 iyun,- 2016, – 268-274.

4. XX əsrin 90-cı illərində Azərbaycan-ABŞ əlaqələrində enerji faktoru. "Müstəqillik illərində Azərbaycanın sosial-iqtisadi, siyasi və mədəni inkişafı" Respublika elmi konfransının materialları,-Sumqayıt:- 13-14 oktyabr, - 2016. - s.76-78.

---

[1]Mehdizadə, G.Z. Beynəlxalq nəqliyyat dəhlizlərinin inkişaf etdirilməsi Azərbaycanın milli iqtisadi təhlükəsizliyinin tərkib hissəsi kimi // Elmi Əsərlər. AMEA A.A.Bakıxanov adına Tarix İnstitutu, - 2018, c.77, - s.147-156.

5. Şərqlə Qərbi birləşdirən Xəzər dənizi yeni geosiyasi tarixi şəraitdə (XX əsrin 90-ci illəri) // -Bakı: Tarix və onun problemləri, nəzəri, elmi, metodik jurnal,- 2016. №4,- s.254-260.

6. XX əsrin son on ilində Azərbaycan neftinin dünya bazarlarına daşınma marşrutlarının seçilməsi // -Bakı: Tarix, insan və Cəmiyyət. Elmi-nəzəri və elmi-metodik jurnal, - 2017. 3 (18), - s.100-109.

7. Azərbaycan Respublikasının Avropa-Qafqaz-Asiya beynəlxalq nəqliyyat dəhlizinin yaradılmasında rolu (XX əsrin 90-ci illəri). IV uluslararası türk dünyası araşdırmaları simpozyumu. Türkiyə Cümhuriyyəti, -Niğde şəhəri:- 26-28 aprel, - 2017, - s.345-354.

8. Ötən əsrin sonlarında Azərbaycan Respublikasının Avroasiyanın mərkəzində Şərq-Qərb nəqliyyat dəhlizinə çevrilməsi. Ümummilli lider Heydər Əliyevin anadan olmasının 94-cü ildönümünə həsr olunmuş“Azərbaycanşünaslığın aktual problemləri” adlı VIII beynəlxalq elmi konfransın materialları, -Bakı:- 4-5 may, - 2017, - s.318-320.

9. 1998-ci il 8-9 sentyabr Bakı konfransı Böyük İpək Yolunun dirçəldilməsində mühüm addım kimi // -Bakı: AMEA Tarix İnstitutu, Elmi Əsərlər.AMEA A.A.Bakıxanov adına Tarix İnstitutu, - 2017. c.67, - s.69-82.

10. Azərbaycan Respublikasının qlobal iqtisadi layihələrdə iştirakının milli təhlükəsizliyimizin möhkəmləndirilməsində rolu (XX əsrin 90-cı illəri) // “Heydər Əliyev Azərbaycan dövlətçiliyinin memarıdır” adlı respublika elmi konfransının materialları,- Bakı:-2017,- s.109-111.

11. Beynəlxalq nəqliyyat dəhlizlərinin inkişaf etdirilməsi Azərbaycanın milli iqtisadi təhlükəsizliyinin tərkib hissəsi kimi //-Bakı: Elmi Əsərlər. AMEA A.A.Bakıxanov adına Tarix İnstitutu, -2018. c.77, - s.147-156.

12. Qərb dövlətlərinin Şərq-Qərb nəqliyyat dəhlizi-TRASEKA-nın yaradılmasında maraqları (XX əsrin 90-ci illəri)// AMEA A.A.Bakıxanov adına Tarix İnstitutu, “Gənc tədqiqatçıları-tarixçilərin I respublika konfransı. AMEA A.A.Bakıxanov adına Tarix İnstitutu,- Bakı:- 15 sentyabr, - 2019, -70-71.

13. Влияние проекта TRACECA на расширение региональных и международных отношений Азербайджанской Республики. Современная научная мысль //-Москва: Научный журнал НИИ истории, экономики и права. НИИ ИЭП,-2019.№ 2,-174-179 с.

14. Beynəlxalq nəqliyyat dəhlizlərində iştirakın Azərbaycanın beynəlxalq əlaqələrinin inkişafında rolu (XX əsrin 90-ci illəri)// Şəxsiyyət, Cəmiyyət, Dövlət: qarşılıqlı münasibətlərə müasir yanaşmalar. Respublika elmi konfransının materialları,- Bakı:- 6-7 dekabr, - 2019,- s.628-630.

15. Azərbaycan Respublikasının Şərq-Qərb enerji və nəqliyyat dəhlizlərinin inkişafında Türkiyə və Gürcüstan ilə strateji əməkdaşlığı (XX əsrin 90-cı illəri)// -Bakı:Pedaqoji Universitetin Xəbərləri, - 2019. c.67, №4, - s.159-167.

16. Şərq-Qərb enerji və nəqliyyat dəhlizlərinin yaradılmasında Heydər Əliyevin neft strategiyasının rolu. Turizm və qonaqpərvərlik tədqiqatları // -Bakı: Beynəlxalq jurnal. Azərbaycan Turizm və Menecment Universiteti, - 2019. c.4, - s.161-170

17. Creation of East-West energy and transport corridors the end of the Twentieth century. “Ponto-Caspian and Caucasus region: changes in the conditions of integration and isolation of ecosystems, geology, ecology , geography and Phylogenies of living organisms” international conference which was organized by the Western Caspian University,-Baku:- 27-28 november, - 2020. - p.64.

18. Heydər Əliyevin neft strategiyasında Şərq – Qərb enerji və nəqliyyat dəhlizlərinin yaradılması məsələləri// “Azərbaycan Respublikası-1991-2021: Dövlət müstəqilliyinin bərpası, iqtisadi və sosial-mədəni inkişaf” respublika elmi-konfransının materialları,- Sumqayıt: -14-15 oktyabr, - 2021, - s.192-196.

19. Bütün türk dünyasını birləşdirəcək dəhliz –Zəngəzur dəhlizi// “Azərbaycanın ərazi bütövlüyünün təmin olunması uğrunda İkinci Qarabağ Vətən müharibəsi: Dövlət, Xalq, Ordu birliyi. Uğurlar və perspektivlər” Beynəlxalq elmi konfransın materialları,- Bakı:- 29-30 oktyabr,- (2021), - 2022. - s.323-328.

Dissertasiyanın müdafiəsi 13 may 2022-ci il tarixində saat 10 00 Azərbaycan Milli Elmlər Akademiyası A.A.Bakıxanov adına Tarix İnstitutu nəzdində fəaliyyət göstərən ED 1.30 Dissertasiya Şurasının iclasında keçiriləcək.

Ünvan: Az-1143, Bakı şəhəri, H.Cavid prospekti, 115

Dissertasiya ilə Azərbaycan Milli Elmlər Akademiyası A.A.Bakıxanov adına Tarix İnstitutunun Elmi arxiv və kitabxanasında tanış olmaq mümkündür.

Dissertasiya və avtoreferatın elektron versiyaları Azərbaycan Milli Elmlər Akademiyası A.A.Bakıxanov adına Tarix İnstitutunun rəsmi internet saytında yerləşdirilmişdir.

Avtoreferat 11 aprel 2022-ci il tarixində zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb:

Kağızın formatı:A5

Həcm: 50.852

Tiraj:100